# Yeni dərs iliniz mübarək!

## Yeni məktəb binası istifadəyə verildi

Uzun illər idi ki, Qəbələ şəhər 5 saylı tam orta məktəbi yararsız, köhnə binada yerləşirdi. Nəhayət, həmin məktəb üçün 18 sinif otağı, 1 kompüter otağı, 1 kompüterlərlə təmin olunmuş xarici dil otağı, akt zalı, idman zalı, kitabxana, bufet, kimya-biologiya və fizika laboratoriyalarından ibarət möhtəşəm, yaraşıqlı məktəb binası tikildi.







Sentyabrın 15-də 360 şagird yerlik məktəb binasının təntənəli açılış mərasimi oldu. Mərasimdə Respublika Ağsaqqallar Şurasının sədri, MM-in deputatı Fəttah Heydərov, Azərbaycan Respublikası Təhsil Nazirinin müavini Firudin Qurbanov, rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayon təhsil şöbəsinin rəhbərliyi, rayon ictimaiyyətinin nümayəndələri, müəllimlər, şagirdlər və valideynlər iştirak edirdilər.

Mərasimi rayon təhsil şöbəsinin müdiri Oqtay Hacıyev açıq elan etdi və qonaqları bütün mərasim iştirakçılarını salamladı. Mərasimdə məktəbin müəllimi Leylat İsayeva, valideyn Raqif Məmmədov, IX sinif şagirdi Bahar Cəfərova çıxış edərək bu gözəl məktəb binasının şagirdlər üçün çox böyük hədiyyə olduğunu söyləyərək, ölkə və rayon rəhbərliyinə, tikintidə zəhməti olan bütün təşkilatlara minnətdarlıqlarını bildirdilər.

Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yeni məktəbin açılışında iştirak edən bütün qonaqları müəllimləri, valideynləri, şagirdləri rayon icra hakimiyyəti adından salamlayaraq, onlara xoş arzularını, məktəbin tikintisində fəallıq göstərən bütün təşkilatlara təşəkkürünü bildirdi.

Təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında qeyd etdi ki, bütün respublikamızda olduğu kimi Qəbələ rayonunda da çox böyük abadlıq-quruculuq işləri görülmüşdür. Natiq bildirdi ki, açılışına toplaşdığımız 5 saylı tam orta məktəb dediklərimizin bariz nümunəsidir. O, məktəbin əvvəlki binası ilə tanış olduğunu və bu iki məktəb binasını müqayisə etmək mümkün olmadığını vurğulayaraq bütün müəllimləri və şagird kollektivini yeni dərs ilinin başlaması münasibətilə təbrik etdi.

MM-in deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov öz çıxışında vaxtilə ulu öndərimiz Heydər Əliyevin və hazırda onun davamçısı olan ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycanda təhsilin inkişafına böyük diqqət verdiklərini tədbir iştirakçılarının nəzərinə çatdırdı. O, qeyd etdi ki, son illərdə Azərbaycanda yüzlərlə yeni məktəb binaları tikilmiş, əsaslı təmir edilmişdir. Qəbələ rayonunda da , istər təhsil, istərsə də digər sahələrdə çox böyük uğurlar əldə olunmuşdur.

Fəttah Heydərov çıxışının sonunda bütün rayon müəllimlərini, «Bilik Günü» və yeni məktəbin istifadəyə verilməsi münasibətilə təbrik etdi, yeni tədris ilində onlara uğurlar arzuladı.

Sonra birincilərə hədiyyə olaraq məktəbli çantası paylandı.

Qonaqlar, məktəbin sinif otaqlarına, fənn kabinetlərinə, laboratoriyalarına, idman və iclas zallarına baxış keçirdilər və bir daha müəllim kollektivinə yeni məktəbdə daha yüksək uğurlar arzuladılar.

Qonaqlar XI sinifdə keçirilən ilk dərs saatında iştirak etdilər.

**Oqtay MƏMMƏDOV.**

## Təbrik edirik

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 sentyabr 2015-ci il tarixli sərəncamı ilə rayonumuzun Vəndam qəsəbə 3 saylı tam orta məktəbinin məzunu, Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Əfəndiyeva Xəyalə Rəvan qızı (qəbul imtahanı 700 bal), Həmzəlli kənd tam orta məktəbinin məzunu, "Qafqaz" Universitetinin tələbəsi Sracbəyli Zöhrə Kamran qızı (qəbul imtahanı 695 bal), şəhər 1 saylı tam orta məktəbin məzunu Azərbaycan Tibb Universitetinin tələbəsi Şirinbəyli Təranə Seymur qızı (qəbul imtahanı 695 bal), Nohurqışlaq kənd tam orta məktəbin məzunu, Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Əzizli Vüsalə İldırım qızı (qəbul imtahanı 686 bal) Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görülmüşlər. Ölkə başçısının yüksək etimadını öz bilik və bacarıqları ilə qazandıqlarına görə həmyerlilərimizi təbrik edir, gələcəkdə də daha böyük uğurlar arzulayırıq.

**"Qəbələ".**

## Sevincim hədsizdir

Mən təhsil almağa Vəndam qəsəbəsi 1 saylı tam orta məktəbində başlamışam. Daha sonra təhsilimi Vəndam qəsəbə 3 saylı tam orta məktəbində davam etdirmişəm və həmin məktəbin məzunu olmuşam. Məktəb illərində hər birimiz vətənimizin qarşısında öz borcumuzu, vəzifələrimizi vərəqə köçürərdik. Ağlıma o zamanlardan bir şey həkk olunmuşdu: Yaşından, peşəsindən asılı olmayaraq hər kəs dövlətin layiqli vətəndaşı olmalıdır.Layiqli vətəndaşlığa gedən yol isə təhsildən keçir. Ulu öndər Heydər Əliyevin dediyi kimi: "Təhsil millətin gələcəyidir". Ulu öndərimizin təhsil sahəsində açdığı bu yolda biz şagirdlərin ən ümdə vətəndaşlıq borcu mükəmməl təhsilə yiyələnmək, müstəqil, suverən dövlətimizin bizim üçün açdığı imkanlardan faydalanmaqdır.Təhsil aldığım müddətdə hər bir vətəndaşın öz millətini irəli aparmaq yolunun təhsilə yiyələnməkdə olduğunu anladım.Yeni qurulmuş hüquqi dövlətimizdə hüquqşunas olmağı qarşıma məqsəd qoydum.Bu məqsədimə çatmaq üçün daha səylə çalışmağa başladım.

Bu ilki qəbul imtahanlarında iştirak etdim.

Rəsmi nəticələr məlum olarkən 700 bal topladığımı bildikdə sevincimin həddi-hüdudu yox idi.—Qarşıma qoyduğum məqsədə nail olmuşdum.

Artıq ixtisas seçimini də etmişəm. Təhsilimi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşunaslıq fakultəsində davam etdirəcəyəm.

Bu gün möhtərəm Prezidentimiz İlham Əliyev və onun xanımı Mehriban Əliyeva tərəfindən gənclərə çox böyük dəstək var. Gənclərimizin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almaları,yüksək ixtisaslı kadrlar kimi yetişmələri üçün dövlətimiz böyük işlər görür.Bu biz gəncləri daha da ruhlandırır, elmə olan marağımızı daha da artırır. Buna görə çalışacağam ki, ali təhsil illərində də yüksək biliklər əldə edib gələcək fəaliyyətimdə dövlətimizin bizə göstərdiyi etimadı doğruldum.

**Xəyalə ƏFƏNDİYEVA,**
**Vəndam qəsəbə 3 saylı tam orta məktəbin məzunu, Prezident təqaüdçüsü.**